# HEYDƏR ƏLİYEVİN

## Akademik İsa Həbibbəylinin tədqiqatlarında



*Salatın ƏHMƏDLİ,*
*dosent*

*(Əvvəli ötən saylarımızda)*

İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, təzə istiqamətlər açan, yol göstərən görkəmli siyasi liderdir. Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin olması müstəqil dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır. Görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli, müstəqil dövlətçilik təlimi, sınaqlardan çıxmış bu siyasi kurs Prezident İlham Əliyevin çoxcəhətli fəaliyyətinin strategiyasını təşkil edir. Heydər Əliyev siyasi kursu - Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsaslarından ibarətdir. Heydər Əliyev təlimi - ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yolunun uzunmüddətli proqramıdır. Heydər Əliyev fəlsəfəsi - Azərbaycan idealının ölkənin çoxcəhətli inkişafında özünü təsdiqinin dialektikasından ibarətdir".

İlham Əliyevin Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, ardıcıllıqla və yaradıcılıqla həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və istedada malik olduğunu, böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla da davam etdirilməsinin real bəhrələri, sanballı töhfələri olduğu göstərilir.

Məhz İlham Əliyev yeni dünya düzənində Azərbaycana baş ucalığı gətirən böyük siyasətçi kimi qiymətləndirilir: "Azərbaycanın yeni tarixi epoxadakı yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir. Bakının az qala hər gün, hər həftə keçirilən genişmiqyaslı böyük və əhəmiyyətli tədbirlərə layiqincə ev sahibliyi etməsi də Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin real göstəricilərindəndir. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi, beynəlxalq miqyaslı qərarlara imza atmaq, dünyaya müraciətlə bəyanatlar səsləndirmək haqqı qazanması Prezident İlham Əliyev siyasətinin təntənəsidir. Bütün bunlar Prezident İlham Əliyevin timsalında inanılmış, sınaqlardan çıxmış siyasi kursun ardıcıllıqla və qətiyyətlə davam etdirilməsinin nələrə qadir olduğunun, ölkəmizi hansı səviyyəyə gətirib çatdıra biləcəyinin gerçək təzahürləridir".

Akademik İsa Həbibbəyli Heydər Əliyevin azərbaycançılıq fəaliyyətinin geniş təhlil və izahını verir. Burada azərbaycançılıq məfkurəsi uğrunda ilk addımlarını atan, ilk sözünü deyən Azərbaycan mətbuatının, Azərbaycan ədiblərinin əsərlərinin, maarifçi ziyalıların dəyərli fikirlərini araşdırır. Ümumilikdə, azərbaycançılıq ideyalarının mütləqləşdirilməsində Heydər Əliyev siyasətinin, onun davamçısı İlham Əliyevin böyük ictimai-siyasi əhəmiyyətli fəaliyyətini təhlil edir.

* * *

"Dahilik və zaman" adlı yazısında geniş mətləblərə toxunur. Dahilik məsələsini təhlil edir. Bəşəriyyətin bütün tarix boyu dahilərin çiyinləri üstündə irəliyə doğru inkişaf etdiyini, onların uzaqgörənliyini, "möhkəm siyasi iradə, milli mövqe və mübarizə əzmi"nin belə tarixi şəxsiyyətlərin əsas xüsusiyyətlərini təşkil etdiyini yazır. Yaxın yüzilliyin böyük şəxsiyyəti Atatürkü yada salır. Dizi üstə çökmüş Osmanlı imperatorluğunun zəminində yaradılmış Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün XX əsrin əvvəllərində böyük xilaskarlıq vəzifələrini həyata keçirdiyini, Türkiyəni xarici dövlətlərin müdaxiləsindən və parçalanmaqdan xilas etdiyini, xalqın inamını qazandığını, türk dövlətinin böyük qurucusuna çevrildiyini söyləyən İsa Həbibbəyli başqa xalqların və ölkələrin tarixində xüsusi xidmətləri olan başqa dövlət xadimləri - Fransada Şarl De Qol və Fransua Mitteran, Çində Mao Tszedun, Amerikada Corc Vaşinqton və Eyzenhauer, İngiltərədə Vinston Çörçil və başqaları haqqında da deyir: "Dünya tarixinə dərin izlər salmış bu görkəmli şəxsiyyətlər böyük dövlətçilik istedadına malik olan tarixi simalardır", - deyən İsa Həbibbəyli Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin XX əsrin ikinci yarısından etibarən mənsub olduğu xalqın tarixi müqəddəratında oynadığı həlledici rolu vurğulayır. Onun sovet dövründən Azərbaycan xalqının milli mənafelərinin qorunub saxlanılması üçün atdığı böyük addımları dəyərləndirir: "Heydər Əliyev sovet dövründə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran görkəmli siyasi xadimdir. Məhz onun xidmətləri sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyində ən inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qurulması və möhkəmləndirilməsi də üzvi surətdə Heydər Əliyevin adı və mübarizəsi ilə bağlıdır. Bütün bunlara görə Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideri kimi böyük tarixi ad qazanmışdır". Azərbaycanın böyük dövlətçilik istedadına və zəngin təcrübəyə malik olan "nadir tarixi şəxsiyyət"i, xalqın və ölkənin taleyində xüsusi rolu olan görkəmli "dövlət xadimi" kimi yüksək qiymətləndirir.

Görkəmli ədəbiyyat xadimlərinin də həmişə mənsub olduqları xalqların tarixi inkişaf yollarını işıqlandırdıqlarını bildirən İsa Həbibbəyli "tarixdə böyük siyasətin həm də böyük ədəbiyyatdan güc və qüvvət alması dair də çoxlu faktlar və hadisələr mövcuddur. Tarix boyu həmişə milli siyasətlə ədəbiyyat bir-birini tamamladıqda daha böyük gücə çevrilə bilmişdir", - deyir və Anadolu Türkiyəsinin tarixi taleyində Yunis İmrə, Mehmet Akif Ərsoy, Namiq Kamal və başqaları kimi yazıçıların misilsiz xidmətlərinin olduğunu və Mustafa Kamal Atatürkün bu irsdən böyük siyasətdə məharətlə faydalandığını qeyd edir və Azərbaycan mütəfəkkirlərinə diqqəti yönəldir: "Qüdrətli Azərbaycan şairi Nizami Gəncəvi türk-müsəlman dünyasında günəş kimi parlamışdır. Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Mirzə Ələkbər Sabir, Əhməd Cavad, Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz və digər ədəbiyyat xadimləri Azərbaycan xalqının milli düşüncəsini formalaşdırmış, gələcək mübarizə yollarına işıq saçmışdır". Heydər Əliyevin Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını bütün fəlsəfəsi ilə dərindən bilmiş və milli istiqlal uğrunda apardığı məsuliyyətli mübarizələrdə ədəbi-tarixi irsdən və təcrübədən bacarıqla istifadə etdiyini, siyasətdə ədəbiyyatdan aradıcıllıqla istifadə etməyin mükəmməl nümunəsini göstərdiyini, həm də mənsub olduğu ölkənin milli maraqlara əsaslanan ədəbiyyat siyasətini də" müəyyən etdiyi qənaətindədir: "Fikrimizcə, qüdrətli dövlət xadimi Heydər Əliyevin yarım əsrə yaxın apardığı böyük siyasətin böyük ədəbiyyatını və elmini yaratmaq Azərbaycan bədii və elmi təfəkkürünün borcudur. Bu həm də dərin siyasi və elmi-ədəbi düşüncənin möhtəşəm sintezindən yaranmış Heydər Əliyev zəkasından doğan qeyri-adi dövlətçilik modelinin nəsildən-nəslə çatdırılması baxımından da zəruridir. Göründüyü kimi, Türkiyədə Mustafa Kamal Atatürkün, Azərbaycanda Heydər Əliyevin dövlət müstəqilliyi uğrunda apardığı böyük mübarizələrdə siyasət və ədəbiyyat faktoru əsas amillərdən biri olmuşdur. Bu görkəmli dövlət xadimləri xalqı həm də milli ədəbiyyatın böyük ideallarının işığında ciddi mübarizələrə hazırlamışlar. Buna görə də siyasətin və ədəbiyyatın qarşılıqlı əlaqəsi məsələləri milli mənafelərə xidmət edən böyük elmin də əsas problemləri sırasında xüsusi yer tutur". Lakin çox vaxt ədəbiyyatın və siyasətin problemlərindən ayrı-ayrılıqda bəhs edildiyini yazır, bir həqiqəti də - bu anlayışların hər biri ayrı-ayrılıqda da böyük elmin mövzusudur - vurğulamaqla yanaşı, onun fikrincə, "hazırkı dövlət müstəqilliyi mərhələsində xalqın taleyində xüsusi əhəmiyyətə malik olan bu məsələlərdən həm də bir yerdə, qarşılıqlı əlaqədə bəhs etmək müasir dövrün böyük elminin əsas vəzifələrindəndir". Bu mənada dövlətçilik siyasətində Mustafa Kamal Atatürkdən Heydər Əliyevə, ədəbiyyatda Nizami Gəncəvidən, Yunis İmrədən çağdaş ədəbiyyata qədər keçilən çoxəsrlik siyasi-tarixi və ədəbi yolun təcrübəsinin vahid mövqedən öyrənilməsi mühüm elmi nəticələrin əldə edilməsinə sanballı töhfə verə bilər. Dahilik və zaman böyük siyasətin, böyük elmin və ədəbiyyatın əbədi problemidir. Bu ciddi və məsuliyyətli problemin görünən və görünməyən tərəflərinin dərindən öyrənilib ümumiləşdirilməsi bütün zamanlar üçün aktualdır".

Görkəmli dövlət xadimi Heydər Əliyev və zaman anlayışının Heydər Əliyevin dövrü və zamanı düşüncəsini əhatə etməklə qalmadığını, bu anlayışın böyük dühaların öz ölkələrinin və xalqlarının inkişaf yollarında bütün zamanlar üçün gərəkli və əhəmiyyətli olduqlarını nümayiş etdirdiyini bildirir.

* * *

"Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə"adlı bölmədə İsa Həbibbəyli müstəqil Azərbaycan dövlətinin və xalqımızın taleyində mühüm, həlledici rola və əhəmiyyətə malik Yeni Azərbaycan Partiyasını araşdırır və "tarixə Heydər Əliyev Partiyası kimi daxil olmuşdur", - deyir. Bunu şərtləndirən əsas faktorlara bölür:

Birinci olaraq görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin - "Yeni Azərbaycan Partiyasının banisi və yaradıcısı"nın, "Beynəlxalq aləmdə böyük siyasətin nadir və ən mahir təmsilçilərindən biri kimi" tanındığını, "XX əsrin 90-cı illərinin əvvəllərində dünyada, regionda və ölkədə gedən ictimai-siyasi prosesləri dəyərləndirərək, dərindən təhlil edərək yenicə müstəqillik qazanmış dövlətinə və çətin günlər yaşayan xalqına kömək etmək, ölkəni böhrandan çıxarmaq, müstəqil dövləti xilas etmək məqsədilə Yeni Azərbaycan Partiyasının yaradılması zərurətini" vacib saydığını, Azərbaycan ziyalılarının və siyasətçilərinin çoxsaylı müraciətləri ilə bir sırada "keşməkeşli zamanın, çətin və mürəkkəb ictimai-siyasi proseslərin, xüsusən, çox ağır vəziyyətə salınmış gənc dövlətin və xalqın taleyinin" Heydər Əliyev tərəfindən nəzərə alınmasının "Yeni Azərbaycan Partiyasının yaranması üçün" zəruri əsasa çevrildiyini, görkəmli dövlət xadimi Heydər Əliyevin 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasını yaratmaq kimi şərəfli və məsuliyyətli bir tarixi missiyanı həyata keçirmiş olduğunu göstərir.

Eyni zamanda Heydər Əliyevi "Yeni Azərbaycan Partiyasının proqramı və nizamnaməsinin" əsas müəllifi kimi xarakterizə edir və bildirir ki, "əvvəla, bu partiyanın proqramı və nizamnaməsinin başlıca prinsipləri və əsas tezisləri, ana müddəaları Heydər Əliyev tərəfindən müəyyən olunmuşdur. İkincisi isə, Heydər Əliyev ilkin mərhələdə bir neçə variantda hazırlanmış proqramın və nizamnamənin üzərində zəruri düzəlişlər və əlavələr aparmış, faktiki olaraq son yekun variantı meydana çıxarmışdır". Ekspertlərin rəylərinə görə, Yeni Azərbaycan Partiyasının Proqramı və Nizamnaməsi nəinki Azərbaycandakı, hətta Müstəqil Dövlətlər Birliyi ölkələrindəki yeni partiyaların hamısının proqramları və nizamnamələrindən təkmil və üstün olduğunu, burada Heydər Əliyev kimi böyük dövlət xadiminin çoxillik zəngin təcrübəsinin, müdriklik və uzaqgörənliyinin əsas rol oynadığını, buna görə də "yarandığı vaxtdan böyük vaxt keçməsinə baxmayaraq, Yeni Azərbaycan Partiyasının Proqramı və Nizamnaməsinin təməl şərtləri, ana müddəaları həyatiliyini və dəyərini qoruyub saxlamış, əhəmiyyətini bir daha təsdiq etmiş" olduğunu söyləyir.

# DÖVLƏTÇİLİK TƏLİMİ

Eyni zamanda böyük dövlət xadimi Heydər Əliyevin 1992-ci ildən ömrünün sonunadək Yeni Azərbaycan Partiyasına rəhbərlik etdiyini, Dövlət başçısının yüksək təşkilatçılıq mədəniyyətinin, zəngin dövlətçilik təcrübəsinin qeyri-adi səfərbərlik bacarığının Yeni Azərbaycan Partiyasının böyük sürətlə inkişaf etdirilməsinə ciddi təkan verdiyini, Heydər Əliyevin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən Naxçıvanda yaranmış Yeni Azərbaycan Partiyası o zamankı Azərbaycan iqtidarının bütün ciddi təzyiqlərinə baxmayaraq, qısa müddətdə və çətin şəraitdə respublikanın demək olar ki, əksər bölgələrində özünün ilk təşkilatlarını yaratmağa müvəffəq oladuğunu, Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi, Qadınlar Şurası da təsis edildiyini diqqətə çəkir.

Əsas faktorlardan biri kimi Azərbaycanın əsas ziyalı potensialı, aparıcı siyasi qüvvələri məhz böyük sınaqlardan çıxdığını, özünü beynəlxalq miqyasda görkəmli dövlət xadimi kimi təsdiq etmiş Heydər Əliyevə görə, bu nəhəng siyasətçiyə böyük ümid və inam bəsləyərək Yeni Azərbaycan Partiyasının sıralarına daxil olduqlarını, Heydər Əliyev Naxçıvanda yaşayıb-işlədiyi dövrdə tərkibinə, kəmiyyət və keyfiyyət göstəricilərinə görə Yeni Azərbaycan Partiyası Respublikanın siyasi-ideoloji mühitində böyük üstünlük qazanması ilə fərqləndiyini, həm keçmiş sovet dövründən Heydər Əliyevi yaxından tanıyanlar, ulu öndərin rəhbərliyi dövründə onunla birlikdə çalışanlar, həm də yeni nəsillərin nümayəndələrinin də “böyük inamla və sıx-sıx Yeni Azərbaycan Partiyasının” sıralarına qoşulduqlarını, Heydər Əliyevin rəhbərliyi dövründə Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 300 min nəfəri keçdiyini, bu göstəricinin Azərbaycanda mövcud olan çoxsaylı siyasi partiyaların birlikdə hamısının üzvlərindən qat-qat çoxluğu, eyni zamanda Yeni Azərbaycan Partiyası özündə Azərbaycanın “əsas ziyalı potensialını, intellektual düşüncəsini” cəmləşdirdiyini, akademiklərin, elmlər doktorlarının, professorların, görkəmli elm, ədəbiyyat və mədəniyyət xadimlərinin, adlı-sanlı idmançıların, “bir sözlə, Respublikanın sayılıb-seçilən insanları yeni Azərbaycan Partiyasında” təmsil olunduqlarını, Yeni Azərbaycan Partiyasının “ziyalıların, intellektualların” partiyası olduğunu açıqlayır.

Respublikanın ən təcrübəli mütəxəssislərinin Yeni Azərbaycan Partiyasının ətrafında birləşdiyini, Yeni Azərbaycan Partiyasının ölkəmizin istedadlı, hazırlıqlı, siyasi cəhətdən yetkin olan müasir gəncliyinin baş qərargahı olduğunu təqdir edir.

Məlum faktları (Yeni Azərbaycan Partiyasının birinci və ikinci qurultayları görkəmli dövlət xadimi, mahir siyasətçi Heydər Əliyevin rəhbərliyi ilə keçirilmişdir. Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının qurultaylarındakı parlaq məruzələri və yekun sözü bu partiyanın inkişaf strategiyasının əsasını təşkil edir. Bu məruzələr müstəqil Azərbaycan dövlətinin Heydər Əliyev çağırışlarıdır. Görkəmli dövlət xadiminin qurultaylardakı dərin məzmunlu məruzələri Yeni Azərbaycan Partiyasının fəaliyyət proqramı olmaqdan başqa, həm də ümumiyyətlə, müasir mərhələdə böyük siyasətin mükəmməl dərsləridir) diqqətə çəkir və “minlərlə insanı məhz bu tipli əsaslandırılmış, düşünülmüş parlaq siyasət, Heydər Əliyev ideyaları Yeni Azərbaycan Partiyasına” cəlb etdiyini vurğulayır.

Gəldiyi qənaətə görə, “Heydər Əliyevin sayəsində Yeni Azərbaycan Partiyasının şöhrəti artmış, bu partiya mütəşəkkil bir qurum kimi beynəlxalq aləmdə tanınmışdır. Yeni Azərbaycan Partiyasının təcrübəsi xarici ölkələrin mühüm siyasi dairələrinin diqqətini cəlb etmişdir. Bütün bunlara görə Yeni Azərbaycan Partiyası Heydər Əliyev partiyası kimi tanınır və şöhrət qazanır. Doğrudur, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi hakimiyyətə yalnız bir partiyanın dəstəyi ilə gəlməmişdir. O, geniş mənada xalqın bütün təbəqələri tərəfindən ən ali dövlət vəzifəsinə - ölkə Prezidentliyinə seçilmişdir. Bununla yanaşı, Azərbaycanda siyasi tarazlığın qorunub saxlanılmasında, bütövlükdə siyasi proseslərin yönləndirilməsində, müstəqil dövlətin milli ideologiyasının təbliğində Yeni Azərbaycan Partiyasının xüsusi rolu vardır. Azərbaycançılıq ideologiyası Yeni Azərbaycan Partiyasının siyasətinin əsasını təşkil edir. Ölkə parlamentində keçirilən seçkilərdə Yeni Azərbaycançıların mütləq üstünlük qazanmaları Heydər Əliyev siyasi kursunun həyatiliyini, əbədiyaşarlığını müstəqil Azərbaycan dövlətinin milli maraqlarına layiqincə cavab verdiyini bir daha təsdiqləyir. Hətta bələdiyyə seçkilərində də xalq tərəfindən Yeni Azərbaycan Partiyasının üzvlərinə daha çox etimad göstərilməsi bu partiyanın artıq çətin sınaqlardan uğurla çıxdığını göstərir. Deməli, xalqımız Yeni Azərbaycan Partiyasına böyük ümid bəsləyir və ürəkdən inanır. Bu ümidin və inamın əsasında isə ümummilli liderimiz Heydər Əliyevin siyasi konsepsiyası, Heydər Əliyev idealları dayanır”.

Yeni Azərbaycan Partiyasının Heydər Əliyevin möhtəşəm siyasi dövlətçilik idealarından doğulduğu, bu partiyanın Azərbaycan xalqını böyük idealara səfərbər etmək vəzifəsini layiqincə yerinə yetirdiyi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin taleyində də Yeni Azərbaycan Partiyasının özünəməxsus yeri olduğu açıqlanır: “Doğrudur, cənab İlham Əliyev Yeni Azərbaycan Partiyası sıralarına gələnədək diqqətəlayiq səviyyədə yetkin təcrübə qazanmışdı. Heydər Əliyev kimi nəhəng siyasi xadimin övladı olmaq, onun başçılıq etdiyi ailədə formalaşmaq böyük siyasətin ən mükəmməl dərslərini almaq deməkdir. Heydər Əliyev görkəmli, müdrik və mahir bir siyasətçi kimi İlham Əliyev üçün böyük məktəb olmuşdur. Məhz Heydər Əliyev siyasi meydanda İlham Əliyevin ən qüdrətli müəllimi kimi onu formalaşdırmışdır. Azərbaycana rəhbərliyinin birinci dövründə və Moskvada siyasət olimpinin zirvəsində təmsil olunduğu zaman Heydər Əliyevin yaşadığı məsuliyyətli və mənalı həyatının, mübarizəsinin görünən və görünməyən tərəfləri, ən müxtəlif ciddi aspektləri İlham Əliyevin aldığı böyük siyasi dərslərin cövhərini təşkil edir. Ümumilikdə Prezident İlham Əliyev dünya miqyasında özünü təsdiq etmiş Heydər Əliyev siyasət məktəbinin görkəmli yetirməsi, real nəticəsidir, bu böyük məktəbin yaradıcılıqla davam və inkişaf etdirilməsinə xüsusi bir örnəkdir”. İlham Əliyevin Moskva Beynəlxalq Münasibətlər İnstitutunda mükəmməl ali təhsil almasının, tarixçi-diplomat ixtisasına dərindən yiyələnməsinin də onun siyasi dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynadığını bildirən İsa Həbibbəyli bu fikirdədir ki, bütün bunlar o deməkdir ki, İlham müəllim böyük siyasətdə təmsil olunana qədər, Yeni Azərbaycan Partiyasınadək siyasi mühitdə ciddi və əhəmiyyətli yol keçmişdir. Ona görə də İlham Əliyevin Yeni Azərbaycan Partiyası sıralarına qoşulması, hər şeydən əvvəl, bu partiyanın kamil bir siyasətçi ilə daha da zənginləşməsinə xidmət etmişdir. Bundan başqa, İlham Əliyevin Yeni Azərbaycan Partiyasına gəlişi onun nümunəsində partiyanın layiqli gənclərin hesabına bir daha qüvvətləndirilməsinə böyük təkan vermişdir. Minlərlə gənc İlham Əliyevin ardıcılı olmaq üçün özünün taleyini həmişəlik olaraq Yeni Azərbaycan Partiyasına bağlamışdır. İlham Əliyev başlanğıc mərhələdə Yeni Azərbaycan Partiyasında yeni nəsil gəncliyin lideri kimi çıxış etmişdir. Bununla belə, Yeni Azərbaycan Partiyasında Heydər Əliyev kimi qüdrətli siyasi xadimin rəhbərliyi ilə müavin, birinci müavin kimi keçdiyi mənalı yol da onun siyasi təcrübəsinin daha da zənginləşməsinə geniş şərait yaratmışdır.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının müasirləşməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə ciddi əhəmiyyət verdiyini qeyd edir, indiki mərhələdə də Yeni Azərbaycan Partiyasının “yenə də Azərbaycan siyasi mühitinin ən mütəşəkkil, aparıcı qüvvəsi kimi” çıxış etdiyini söyləyir: “Yeni Azərbaycan Partiyasının iqtidar partiyası kimi imicinin qorunub mühafizə olunmasına, daha da genişləndirilməsinə ciddi fikir verilir. Buna görədir ki, haqlı olaraq bu partiya yeniləşən Azərbaycanın yeni tipli, yetkin siyasi partiyası kimi şöhrətini nəinki qoruyub saxlayır, getdikcə daha da artırır”.

İlham Əliyevin XXI əsrdə beynəlxalq miqyasda özünün liderlik potensialını, rəhbərlik imkanlarını yeni tipli siyasi xadim kimi dünyaya bəyan etməsi, Azərbaycan cəmiyyətinin ən müxtəlif təbəqələrinin təmsilçilərinin Yeni Azərbaycan Partiyasına axını xalqın yeni dövrün görkəmli dövlət xadimi və siyasi lideri İlham Əliyevə olan böyük inamını dolğun şəkildə ifadə etməsi açıqlanır: “Mətbuatda verilən məlumata görə, yalnız 2007-ci ilin ötən ayları ərzində Yeni Azərbaycan Partiyasına 60 min yeni üzvün qəbul olunması həm iqtidar partiyasına, həm də onun böyük liderinə olan müsbət münasibətlərin, dərin ümumxalq inamının qanunauyğun, məntiqi nəticəsidir”.

Yeni Azərbaycan Partiyasının sıralarının təmizlənməsi, tərkibinin keyfiyyətcə daha da yaxşılaşdırılması proseslərinin gerçəkləşməsi istiqamətində aparılan işlərin partiyada demokratik prinsiplərin genişləndirilməsinə şərait yaratdığını, “demokratik dəyərlərə önəm verən, daim axtarışda olan, fəaliyyətində siyasi dialoqu ön mövqeyə çəkən partiya kimi” qabarıq şəkildə nəzərə çarpması, “siyasi müxalifətə münasibətdə radikal qarşıdurmaya deyil, dialoqa, fikir mübadiləsinə” meydan açması, Yeni Azərbaycan Partiyasının artıq ölkədə və dünyada yüksək siyasi mədəniyyət nümayiş etdirən bir partiya səviyyəsində qəbul olunması diqqətə çəkilir: “Yeni Azərbaycan Partiyası yüksək siyasi mədəniyyət partiyasıdır. Hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin respublikamızın dünya birliyi ilə əlaqələrinin daha da genişləndirilməsi və möhkəmləndirilməsi, milli maraqlar nəzərə alınmaqla inteqrasiya proseslərinin dərinləşdirilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü proqram Yeni Azərbaycan Partiyasının fəaliyyətinin də həmin sahədə inkişaf etdirilməsinə böyük perspektivlər açır. Avropanın böyük siyasi təcrübəyə malik partiyalarının təmsilçilərinin ölkəmizə səfərləri, Yeni Azərbaycan Partiyasının İcra katibliyi, İdarə Heyəti və Siyasi Şurasının üzvləri ilə aparılan səmərəli danışıqlar cəmi 15 yaşı olan bu partiyada işlərin gündən-günə təkmilləşdirilməsinə və yeniləşdirilməsinə ciddi təkan verir”.

Eyni zamanda Yeni Azərbaycançıların heyət halında Çin Xalq Respublikasına və Türkiyə Cümhuriyyətinə, digər ölkələrə səfərləri, həmin ölkələrin iqtidar patiyalarının, digər siyasi cərəyanlarının rəhbərləri ilə, tanınmış siyasi xadimlərlə görüşləri, “imzalanan əməkdaşlıq protokolları”nın partiyada dünya təcrübəsini öyrənməyə, “yeni dünya görüşü formalaşdırmağa” uğurla xidmət etdiyini söyləyir. Yeni Azərbaycan Partiyasını “inteqrasiya proseslərinə üstünlük verən, daim yeniləşən və yaradıcı şəkildə inkişaf edən” partiya kimi dəyərləndirir.

Yeni Azərbaycan Partiyasının ən qabaqcıl, aparıcı qollarından biri olan Naxçıvan Muxtar Respublikası təşkilatının böyük siyasi yol keçdiyini vurğulayan İsa Həbibbəyli burada təşkilatın 1992-ci ildə görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən təşkil olunduğunu, bunun “çox mühim və ciddi tarixi hadisə” olduğunu yazır: “Ümummilli liderimiz Heydər Əliyevin partiyanın fəaliyyətə başladığı dövrdə ilk mərhələdə ölkədə yaranan ilk partiya təşkilatlarından biri kimi Naxçıvan Muxtar Respublika təşkilatında həm də üzv kimi təmsil olunması da unudulmaz tarixdir. Bütün bunlar Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika təşkilatının tarixi inkişaf yolunun ən şərəfli səhifələri olmaqla yanaşı, həm də onun siyasi və mənəvi məsuliyyətini müəyyən edir. Keçdiyi inkişaf yolunun dərsləri aydın şəkildə göstərir ki, Muxtar Respublika təşkilatı Heydər Əliyev siyasi kursuna, Heydər Əliyev amallarına daim sadiq olmuş, ölkədə gedən ictimai-siyasi proseslərdə Müstəqil Azərbaycanın dövlətçilik maraqlarını ali meyar kimi həmişə uca tutmuşdur”.

Heydər Əliyevin böyük idealları üstündə köklənmiş Muxtar Respublika təşkilatı ölkədə aparılan bütün seçkilərdə - prezident, parlament, bələdiyyə seçkilərində Yeni Azərbaycançılara uğur qazandırdığını, Prezident İlham Əliyevin apardığı çoxplanlı və məqsədyönlü iş, dövlət səviyyəsində müəyyən olunan siyasi xətt Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika təşkilatının fəaliyyətinin əsas istiqaməti olduğu qeyd edilir...

Akademik İsa Həbibbəyli qənaətini belə bölüşür: “Göründüyü kimi, respublikamızın həyatında xüsusi əhəmiyyətə malik olan Yeni Azərbaycan Partiyasının görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevdən ölkəmizin Prezidenti İlham Əliyevə qədər keçdiyi şərəfli yol müstəqil Azərbaycan dövlətinin siyasi tarixinin ən parlaq səhifələrini təşkil edir. Əslində Yeni Azərbaycan Partiyasının keçdiyi yol müstəqil dövlətimizin və xalqımızın ümid və inamının, böyük ideallarının gerçəkləşməsi yoludur, tərəqqi, dirçəliş, yaradıcı inkişaf, müasirləşmə, yüksəliş yoludur. Beynəlxalq aləmdə yeni dövr dünya siyasətinin görkəmli liderlərindən biri kimi böyük imic qazanmış cənab İlham Əliyevin rəhbərliyilə hazırda Müstəqil Azərbaycan dövləti də, Yeni Azərbaycan Partiyası da xalqımızı yeni zirvələrə aparır”.

*(Davamı var)*